# Qadın hər şeyin ən gözəlinə layiqdir

## *Qadın gülərsə...*

Həyatda yeksənəqliyi sevmədiyimdən peşə fəaliyyətimdə də buna sadiq qalmışam. İstərsə seçdiyim mövzular, istərsə də üz tutduğum müsahiblərin fərqliliyi mənim üçün daha önəmli olub. Və bir də zamanında üzdə olub sonralar bir köşəyə çəkilənləri axtarıb-aramağı çox sevmişəm, lakin nədənsə son vaxtlar bunu unutmuş kimiyəm. Amma yaddaşı təzələmək gərək. Yazılarımın daimi oxucularından dəfələrlə: "Müsahibələrində mədəniyyət və incəsənət sahəsinə xidmət edənlərə daha çox üz tutursan" deyənlər olub. Bu fikirlə qismən razıyam. Uzaq keçmişdə belə bir deyim oxumuşdum: "Bir milləti yer üzündən silmək üçün onun dilini, dinini və bir də mədəniyyətini əlindən alırlar". Çox maraqlı bir fuikir kimi qalıb yadımda o vaxtdan. Yəqin ki, tarixən nə qədər xalqlar, nə qədər millətlər bunun qurbanı olub, sadəcə biz bilmirik. Xoş halımıza ki, bir millət, bir xalq olaraq, sorağımız neçə minilliklərdən üzü bəri hələ də gəlməkdədir və gələcək də, çünki mənəviyyatımızı, milli-mənəvi dəyərlərimizi, nadir mədəniyyətimizi qoruyub saxlamağı bacarmışıq. Və biz də öz növbəmizdə bu sahəyə vicdanla xidmət edənlərə borcluyuq. Çünki bir millət olaraq bizi dünyaya tanıdanlar arasında onların xidməti böyükdür. Bugünkü müsahibim yenə də incəsənət dünyasından olsa da, mənim üçün bir qədər fərqlidir. İki sahə var ki, incəsənətdə daha ciddidir - muğam və opera. Və indiyə qədər opera sahəsinin peşəkarı ilə həmsöhbət olmağa çalışsam da, qəribə səbəblər üzündən alınmayıb. Yəqin ona görə ki, müsaibə öz dəqiq ünvanını gözləyirmiş. Onunla zəngləşəndə məmnuniyyətlə razılığını bildirdi və bir neçə gündən sonra adını daşıdığı müsiqi məktəbində hər tərəfini incəsənət bürümüş otağında qarşılıqlı oturub söhbətə başladıq. "Qadın gülərsə"nin bugünkü qonağı isə respublikanın Xalq Artisti, opera müğənnisi, milli səhnəmizdə "Karmen"in ilk ifaçısı Fatma Muxtarovadan sonra Azərbaycan operasının ikinci "Karmen"i, özünün təsis etdiyi və adını daşıdığı Vokal Musiqi Məktəbinin rəhbəri Fidan-Hacıyeva-Neylordur

### MƏN

Məxməri mövsüm adlanan sentyabr ayında Bakıda anadan olmuşam. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfini bitirsəm də, indiki Bakı Musiqi Akademiyasının vokal şöbəsinə daxil oldum, çünki artıq səs imkanlarım özünü büruzə vermişdi. Fakültətiv olaraq fortepiano ilə də məşğul olmuşam. Professor Hüseyn Əliyevdən dərs aldığım üçün mən çox şanslı tələbə oldum. Uzun illər Opera və Balet Teatrında quruluşçu rejissor kimi fəaliyyət göstərən, tenor səsli bir sənətkar, Fatma Muxtarova kimi bir sənətkarla tərəf müqabili, "Koroğlu", "Bohema", "Otello", Aleko", "Toska" kimi operalarda baş rolların ifaçısı olan müəllimim sənətə gələn yolumun başlanğıcından qolumdan tutaraq, professional səhnəyə qədər əlimi buraxmadı. Artıq 19 yaşında Opera və Balet Teatrının solisti idim. Böyük bir müsabiqə var idi və orada dahi Üzeyir bəyin "Sevgili canan" romansını və fransız bəstəkarı Sen-Sansın "Samson və Dalila" operasından Dalilanın ariyası kimi çətin bir parçanı oxuyaraq, müsabiqədən keçməyə müvəffəq oldum. Və beləcə özümü çox rahat hiss etdiyim opera səhnəsində fəaliyyətə başladım ki, o da bu günə qədər davam edir. Fəaliyyətim dövlət tərəfindən həmişə dəyərləndirilib. 2006-cı ildə respublikanın Əməkdar Artisti adına layiq görüldüm. 2015-ci ildə 8 Mart Qadınlar Bayramında ölkə prezidenti mənə Xalq Artisti fəxri adını verməklə böyük hədiyyə etdi ki, bunun mənim üçün əvəzi yoxdur.

### OCAQ

Musiqiçi ailəsində böyüməmişəm. Atam Hacıağa Hacıyev özü mühəndis olsa da, tarda və fortepianoda gözəl ifa edirdi, yüksək musiqi duyumu vardı. Evimizdə həmişə muğam səslənib. Anam Simuzər xanımın da gözəl muğam səsi vardı. Qonaqlarımız olanda atamın müşayətilə anam muğam ifa edərdi. Mən bütün bunların iştirakçısı olaraq böyümüşəm. Artıq beş yaşından musiqi ilə məşğul olmağa başladım, səs imkanlarımı da düşünürəm ki, anamdan əxz etmişəm. Təbii ki, bu da Allahın qismətidir. Və Bülbül adına məktəbə daxil olmaqla, həyatımı sırf bu sahəyə bağlanmış oldum. Ailədə üç övladıq - iki bacı, bir qardaş. Lakin musiqi tək mənim həyatıma sirayət edə bilib. Bacım tibb, qardaşım isə hüquq sahəsin seçdi.

### YOL

Bülbül adına məktəbdə bizə musiqi ədəbiyyatı dərsi keçilirdi. "Koroğlu" operasından Nigarın ariyasını dinləyirdik. Partiyanı Firəngiz Əhmədova ifa edirdi. Ariya bitəndən sonra onu yamsılamağa başladım. Sinif qızları dedi ki, Fidan, sənin deyəsən opera səsin var axı. Bundan sanki həvəsləndim və konservatoriyaya ( o zaman Bakı



Musiqi Akademiyası belə adlanırdı) gedib səsimi yoxlatdım. Nəticədə dedilər ki, bəli, gözəl opera səs imkanların var. Bunu biləndən sonra hazırlaşmağa başladım. Sonda isə fortepiano sinfini bitirsəm də, vokal ifaçılığını seçdim. Məktəbin son siniflərində hiss edirdim ki, musiqi aləti ilə dostlaşa bilmirəm, özümdə narahatlıq hiss edirdim. Səsim kəşf olunandan sonra isə mən sanki yerimi tapmış oldum və artıq ali təhsilimdə istiqamətimi dəyişdim. Və ilk dəfə səhnəyə çıxanda anladım ki, mənim yerim də, ünvanım da elə buradır. Amma bu yerdə heç vaxt söyləmədiyim bir məqamı sizə açıqlayacam. Vokal şöbəsinə qəbul olunmağım da səbəbsiz ötüşməyib. Musiqi Akademiyasının həm piano ifaçılığı, həm də vokal şöbəsinə sənəd vermişdim. İlk olaraq vokal imtahanı oldu və mən çox yeksək göstərici qazandım. Bəlli bir səbəb üzündən ifaçılıq imtahanı çox uzandı və gecə saat 22.30-da başladı. Mən artıq çox yorğun olduğimdan pianodakı ifamın qiyməti aşağı yazıldı. Düşünürəm ki, burada da çox inandığım qismət özünü göstərdi və əsas olaraq vokal şöbəsinə qəbul edildim.

### SƏHNƏ

Cuzeppe Verdinin "Traviata" operasında çox kiçik bir rol almışdım - hersoginya obrazı. Səhnəyə çıxıb bir-iki replika deməli idim. Çıxdım və dedim. Bu rol mənim səhnə ilə ilk tanışlığım olub. Həmin vaxt həm qastrola gələnləri, həm də öz sənətkarlarımızı səhnədə və pərdə arxasında gördüm. İnsanların obraza daxil olub onları necə canlandırdığını görəndə elə valeh olmuşdum ki, özümə gələ bilmirdim. Adi bir insanın birdən-birə tam fərqli şəkildə görünməsi mənim üçün heyrət dolu bir təəccüb idi. Və bundan sonra gəldiyim sahədə daima axtarışda oldum. Operada ilk ifam "Koroğlu" operasında xanəndə qızın partiyası olub. Daha sonra müəllimim Hüseyn Əliyevin quruluşunda "Karmen" operasında qəhrəmanın rəfiqəsi olan Mersedes obrazını ifa etdim. 21 yaşında isə səhnəyə Karmen kimi çıxdım. Bu obraz mənə böyük uğur gətirdi. O dərəcədə uğur gətirdi ki, Azərbaycanın Karmeni adını qazandım. Karmen güclü xarakterə malik, hamını ələ almağı bacaran, istədiyini edən və bütün bunlara nail ola bilən bir ispan xanımıdır. Bu obrazı istər ölkəmdə, istər xaricdə o qədər yaratmışam ki, hərdən "Karmen"i özəlləşdirdiyimi düşünürəm.

### FİDAN

Dediklərim qeyri-təvazökarlıq kimi səslənməsin mən hədsiz çalışqan biriyəm. Fərqliliyi, rəngarəngliyi çox sevirəm, bir yerdə dayanmaq mənim təbiətimə xas deyil. Bir də paylaşmağı çox sevirəm. Mən vokal məktəbini məhz bu səbəbdən açmaq istədim ki, bildiklərimi öyrədim. Xalqımızın istedadlı uşaqları çoxdur. Zamanında öyrənib bildiklərimi özümdə saxlamaq istəmədim ki, opera, klassik sənət inkişaf etsin. Onları tək yetişdirməklə kifayətlənmirəm, mədəniyyətimizin, musiqimizin dünyada təbliğ olunmasında da çox maraqlıyam. Sənətim kimi pedaqoji fəaliyyətim də mənim üçün çox vacibdir. Artıq Milli Konservatoriyada da dərs deyirəm. Çox istəyirəm ki, gənclərimiz hansı sahədə olursa, olsun mədəniyyətimizin, musiqimizin dəyərini bilsin, məlumatlı olsun. Vacib deyil sırf musiqi ilə məşğul olmaq. Buna hamının imkanı yoxdur, bilirəm. Lakin gənclər arasında, ali məktəblərdə bunun təbliğatı geniş olmalıdır. İstənilən zaman, istənilən yerdə ustad dərsləri keçməyə hazıram və inanıram ki, mənim kimi çox sənətkarlarımız da. Təki gənclərimiz sosial şəbəkələrdə zövqləri korlayan, mənasız musiqidən uzaq olsun. Onlara dəstək olaq ki, düzgün yolda azmasınar, çünki onlar Vətənimin övladlarıdır. Vətənimin adı isə mənim üçün hər şeydən yüksəkdir. Həmişə Vətənimə başucalığı gətirmək istəmişəm. Ölkəmi harada təmsil etmişəmsə, Vətənimi həmişə sevindirmək uğruna çalışmışam və buna nail olmuşam. Xalqın sevgisini qazanmaq üçün çox çətinliklərə qatlaşmışam, çünki bu sevginin əvəzi yoxdur. Mən qismətə çox inanıram. Həyat yoldaşım Azərbaycanı çox sevir, mənim Vətənimdə yaşayıb övladlarımızı böyüdürük. Hər üçü təmiz və səlis Azərbaycan dilində danışır, hətta görüb eşidənlər təəccüb edir. Qızım İngiltərədə diplomatiya sahəsində təhsil alır, böyük oğlum Bakıda oxuyur. 10 yaşlı kiçik oğlum isə musiqiçi olmaq arzusundadır və bu həvəslə də böyüyür. Öz məktəbimizdə oxuyur, fortepiano, gitara, skripkada gözəl ifa edir. Bu yaxınarda bir yeniliyimiz olacaq. Şair Vahid Əzizin Ulu öndərə həsr etdiyi şeiri var. Evdə şeiri oxuya-oxuya öz-özümə deyirdim ki, görəsən bu sözlərə mənim üçün kim mahnı yazar. Elə yoldaşımla bu haqda danışırdıq ki, oğlumun piano arxasına keçib nəsə ifa etdiyini eşitdim. Yaxınlaşıb soruşdum ki, bu nə musiqidi belə? Cavab verdi ki, bir bu melodiyaya qulaq as. Seirə baxanda gördüm ki, nəsə bir uyğunluq var. Bir neçə dəfə musiqini ona çaldırdım. Düşündüm ki, bəlkə bir ana olaraq mənə elə gəlir. Məktəbə gəlib musiqini səsləndirdik və dinləyənlər bir ağızdan mənim yanılmadığımı söylədi. Mahnı da, klip də artıq hazırdır, onu məktəbimizin xoru ilə ifa etmişəm. Bu,bzim Ulu öndərin 100 illiyinə hədiyyəmizdir.



Həyatda daha çox qazanmışam, itirdiyim həmişə yeri görünən atam olub. Çox istəyərdim yenə də yanımda olsun. Tamaşa olan günlərdə həmişə çay dəmləyib məni gözləyərdi. Bunu bildiyimdən tamaşadan sonra evə tez çatmağa tələsərdim. Çay içə-içə uzun uzadı söhbət edərdik. Bu boşluq təəssüf ki, elə olduğu kimi də qalacaq. Həyatda bircə dəfə heyfsilənmişəm, özü də mənə ağrı verəcək qədər. Bir adama etdiyim yaxşılığın müqabilində depressiyaya düşəcək qədər əzab yaşadım. Düzdü, deyirlər zaman ən yaxşı məlhəmdir, amma mən o yaşadığımı hələ də unutmamışam. Ailəmizdə Azərbaycan abu-havası heç zaman dəyişə bilməz, çünki anam Simuzər xanım olan yerdə bu mümkün deyil. Zamanında bizi yetişdirən anamın övladlarımın tərbiyəsində, qayğısında zəhməti əvəzsizdir. Mən milli-mənəvi dəyərlərə çox bağlı bir insanam və uşaqların yetişməyində bu boşluğa imkan verməmişəm. İşimi həmişə elə qurmuşam ki, onlar gələndə evdə olum. Təbii ki, tədbirlər, tamaşalar, səfərlər olanda onlara nəzarət anamın öhdəsindədir. Arzularım çoxdur, etmək istədiklərimin hamısına çatmağa tələsirəm.

### QIRX DÖRD GÜN

İllərdir DİN Daxili Qoşunlarının hərbi-nümunəvi ansamblının rəisiyəm, kapitan rütbəsi daşıyıram. O üzdən Vətənin keşiyində dayanan əsgərlərin fəaliyyətimdə xüsusi yeri var. Və müharibə başlayanda lazım olsa idi mən döyüşməyə də gedərdim. İnanıram ki, buna hamı hazır idi. Müharibədən sonra Ali Baş Komandan və ölkənin Birinci vitse-prezidenti Xudafərin körpüsünə gedəndən bir ay sonra biz bir neçə sənətkar ora getdik. Dövlət televiziyasının layihəsi idi. Mənim "Vətəndir" adlı bir əsərim var, onu məhz orda çəkmək nəzərdə tutulmuşdu. O zaman hələ quruculuq işləri başlamamışdı, hər tərəf mina sahələri idi. Biz körpüyə silahlı əsgərlərimizin nəzarəti altında gedirdik. Körpünün o tayında da silahlı əsgərlər vardı. Və biz o əsəri ifa edəndə mən dağıntılara baxa-baxa sanırdım ki, bu yolda şəhid olan əsgərlərimizin döyüşünü görürəm. Bunun nə qədər qürurverici olduğunu ifadə etməkdə çox acizəm, baxmayaraq ki, şəhid acısı ağırdan da ağırdı. Artıq iki ildən artıq vaxt keçib və hər dəfə əsgərlərimizin qarşısına konsert proqramı ilə çıxanda, mənə elə gəlir ki, səmadan da bizi izləyən gözlər var.

### QADIN GÜLƏRSƏ

Əvvəla sizə və qəzetinizə təşəkkür edirəm. Bayaqdan özlüyamdə düşünürəm ki, maraqlı suallar verirsiz və cavabı tapmaq xeyli də düşündürür. Mən mətbuatla dostam və həmişə də sizlərdən razıyam. Ana adını daşıyan bir varlıq niyə də gülməsin? Qadın hər şeyin ən gözəlinə layiqdi. Unutmaq olmaz ki, bu Vətən uğruna canını fəda edən şəhidlərimizi, əlil qalan qazilərimizi yetişdirən qadındır.

Tamilla TEYMURQIZI